*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 yanvar 2017-ci il № 3 (2120) Qiymətі 25 qəpik


## "Aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm bir daha Azərbaycan dövlətinin gücünü göstərdi, həm də bir daha göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq"

### Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

*Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. İclası giriş nitqi ilə açan dövlətimizin başçısı ilin sosial-iqtisadi yekunlarını dünya və bölgəmizdə baş vermiş hadisələr kontekstində ətraflı təhlil etdi və həmin hadisələrin ölkəmizin iqtisadi, siyasi, sosial aspektlərində necə təzahür etdiyinə öz münasibətini bildirdi.*



Dünyada və yaşadığımız regionda təhlükələr, risklər və təhdidlərin artdığını, qanlı münaqişələrin, müharibələrin davam etdiyini, yeni münaqişə ocaqlarının yarandığını söyləyən dövlətimizin başçısı qeyd etdi ki, bütün bunların nəticəsində yaşadığımız bölgədə sabitlik pozulmuşdur və iqtisadi inkişafla bağlı vəziyyət ağırlaşmışdır. "O ki qaldı, bizim ölkəmizə - Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirmişdir, ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilmişdir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşamışdır və yaşayır. Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur".

Bütün çətinliklərə, itkilərə baxmayaraq, ölkədə iqtisadi sabitliyin qorunduğunu deyən Prezident İlham Əliyev 2016-cı ildə də ölkəmizdə iqtisadi inkişafla bağlı çox önəmli addımlar atıldığını vurğuladı. "2016-cı il dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq. Bu il ərzində qəbul edilmiş qərarlar, qanunlar, mənim tərəfimdən imzalanmış sərəncamlar iqtisadi islahatları daha da dərinləşdirir və bizə imkan verir ki, gələcəkdə qeyri-neft sektorunun hesabına inkişaf edək".

Neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi və bundan irəli gələn investisiyaların, dövlət investisiyalarının azalması səbəbindən ümumi daxili məhsul aşağı düşsə də, ölkəmizdə qeyri-neft sənayesinin istehsalı keçən il 5 faiz artıb. Bu isə uzun illər ərzində ölkə rəhbərliyi tərəfindən aparılmış iqtisadi siyasətin nəticəsidir. Sənayeləşmə, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı, Azərbaycan Prezidentinin sözlərinə görə, gözəl nəticəni təmin edib: "Böhranlı ildə qeyri-neft sənayemizin 5 faiz artması, hesab edirəm ki, çox böyük göstəricidir".

Ölkəmizin çətin və böhranlı şəraitdən şərəflə çıxa bildiyini söyləyən ölkə rəhbəri inamla qeyd etdi ki, artıq görülmüş işlər və bu il görüləcək işlər bu dinamikanı daha da gücləndirəcək. "İqtisadiyyat dayanıqlı şəkildə inkişaf edəcək, qeyri-neft sektorumuz inkişaf edəcək, yeni iş yerlərinin yaradılması təmin ediləcək və əminəm ki, biz dediyim bütün hədəflərə çatacağıq".


**(Ardı 2-ci səhifədə)**




Müdafiə naziri cəbhənin ön xəttində yerləşən bölmələrdə olub


4-cü səhifədə




"Ali Baş Komandanın etimadını doğruldacağıq"


5-ci səhifədə




Şərəfli missiyanı yerinə yetirirlər


6-cı səhifədə




"Dağlıq Qarabağa heç vaxt heç bir müstəqillik verilməyəcək"


7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# “Aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm bir daha Azərbaycan dövlətinin gücünü göstərdi, həm də bir daha göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq”

(Əvvəli 1-ci səhifədə)

2016-cı il həm də onunla əlamətdar oldu ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpası ölkəmizdə təntənə ilə qeyd edildi. Hər birimiz üçün qürurverici olan bu məqama Nazirlər Kabinetinin iclasında dövlət başçısı da toxundu və vurğuladı ki, bu gözəl bayramı yaxşı nəticələrlə, uğurlarla qarşılamışıq.

Dünyanın aparıcı iqtisadi beynəlxalq forumunun - Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 3 pillə irəliləyərək 40-cı pillədən 37-ci pilləyə qalxmışdır. Bu da hesab edirəm ki, rekord göstəricidir.

2016-cı ildə əsas vəzifələrdən biri valyuta ehtiyatlarımızın, xüsusilə Neft Fondu vəsaitlərinin qorunması olduğunu deyən dövlət başçısı hökumətin buna nail ola bildiyini, sosial məsələlərin də öz həllini tapdığını, məcburi köçkünlərin problemlərinin həlli üçün yeni addımlar atıldığını söylədi.

Keçən il Azərbaycanın beynəlxalq əlaqələrinin daha da genişləndiyini, uzun illər ərzində beynəlxalq aləmdə çox etibarlı, ləyaqətli tərəfdaş kimi tanındığını iclas iştirakçılarının diqqətinə çatdıran Prezident İlham Əliyev Vətənimiz üçün yetərincə ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli problemlərinə də toxundu. O, qeyd etdi ki, İslam Əməkdaşlıq Təşkilatı Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və aprelin əvvəllərində Azərbaycana Ermənistan tərəfindən edilən təcavüzlə bağlı kontakt qrupu yaratdı. “Bu qrup artıq fəaliyyətə başlayır. Bu, bizim böyük uğurumuzdur. Son illər ərzində bizim fəaliyyətimiz nəticəsində Qoşulmama Hərəkatı Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması ilə bağlı qətnamələr qəbul etmişdir.”



Prezident İlham Əliyev Azərbaycan dövlətinin bu məsələ ilə bağlı dəyişməz mövqeyini bir daha bəyan etdi: “Dağlıq Qarabağ münaqişəsinin həlli yolları bəllidir. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bizim ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bütün işğalçı qüvvələr bizim torpaqlarımızdan çıxarılmalıdır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Keçən il ATƏT də bu məsələ ilə bağlı öz ciddi sözünü demişdir - status-kvo qəbuledilməzdir. Bu, aksiomdur və bu, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması deməkdir. Budur, münaqişənin həlli yolları. Bunun başqa yolu ola bilməz. Azərbaycan heç vaxt öz torpağında ikinci qondarma erməni dövlətinin yaranmasına icazə verməyəcək. Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. İşğalçı rejim, Ermənistan rəhbərliyi bunu nə qədər tez dərk etsə, bu, onlar üçün o qədər də yaxşı olacaq.

Təbii ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində Azərbaycan Silahlı Qüvvələri vacib faktorlardandır. Ona görə dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğu prioritet vəzifə elan edilib. Son illərdə hərbi hissələrimizin ən müasir silah və texnika ilə təmin edilməsi, zabit, gizir və əsgərlərimizin sosial-məişət problemlərinin yüksək səviyyədə həlli üçün dövlət büdcəsindən böyük vəsait xərclənib. Bu gün Azərbaycan Silahlı Qüvvələri hərbi potensialına görə dünyanın qüdrətli orduları sırasına daxil olub. Ordumuzun döyüş qabiliyyəti baxımından nəyə qadir olması 2016-cı ilin aprel ayında təmas xəttində baş vermiş döyüşlərdə bir daha nümayiş etdirildi.”

Nazirlər Kabinetinin iclasında Azərbaycan Ordusunun həmin döyüşlər vaxtı işğalçılara çox ciddi zərbələr vurduğunu Prezident qürur hissilə söylədi: “Növbəti erməni hərbi təxribatına cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar torpağı işğaldan azad etmişdir. Bu, bizim şanlı tarixi qələbəmizdir. Bu, bir daha dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərir. Bir daha onu göstərir ki, biz istənilən vaxtda məsələni hərbi yolla həll edə bilərik. Minlərlə hektar torpaq işğalçılardan boşaldıldı.”

Aprel döyüşlərini bizim şanlı tariximiz, böyük qələbəmiz kimi dəyərləndirən dövlət başçısı hərbçilərimizlə fəxr etdiyini bildirdi: “Aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm bir daha Azərbaycan dövlətinin gücünü göstərdi, həm də bir daha göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Biz bütün təxribatlara layiqli cavab verəcəyik. Eyni zamanda, illər boyu Ermənistan tərəfindən yaradılmış mif tamamilə darmadağın edildi. Xaricdən silahlar, pullar, digər yardımlar olmasa, onlar bir həftə ərzində bizim qabağımızda duruş gətirə bilməzlər. Bunu özləri də etiraf edirlər. Biz bunu çoxdan bilirdik.”

Həmişə olduğu kimi, münaqişənin ədalətli həll edilməsi üçün Azərbaycan tərəfinin konstruktiv mövqe tutduğunu deyən Azərbaycan Prezidenti qeyd etdi ki, haqq-ədalət, beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. "Tarixi həqiqət də bizim mövqeyimizi möhkəmləndirir. Hərbi güc də, iqtisadi potensial da, siyasi nüfuz da bizdədir. Yəni, biz məsələni istədiyimiz kimi həll edəcəyik. Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağını qaldırmaqdır. Budur, bizim məqsədimiz və biz bu məqsədə doğru irəliləyirik. Aprel döyüşləri bu istiqamətdə çox önəmli tarixi addım olmuşdur".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iclasında, həmçinin qarşıda duran vəzifələr barədə danışdı və 2017-ci ildə ölkəmizin uğurla inkişaf edəcəyinə, bütün sosial proqramların icra ediləcəyinə və iqtisadi inkişafla bağlı çox önəmli addımlar atılacağına əmin olduğunu vurğuladı.

Eyni zamanda ölkə rəhbəri hərbi potensialımızın gücləndirilməsi üçün əlavə tədbirlər görüləcəyini bildirdi: “Hərbi xərclər bizim büdcə xərcləri arasında birinci yerdədir. Bu, belə də olmalıdır. Biz müharibə şəraitində yaşayırıq. Bütün böhranlara, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, biz ordumuzu ən müasir silah-sursat, texnika ilə təmin edirik. Keçən il çox önəmli addımlar atılmışdır. Ən müasir silahlar ölkəmizə gətirilmişdir və bu il də bu proses davam edəcək. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, həm döyüş qabiliyyəti, həm təminat-təchizat baxımından. Bizim yüksək dəqiqliyə, dağıdıcı qüvvəyə malik olan ən müasir silahlarımız var. Onların bir hissəsi nümayiş etdirilib, bir hissəsi isə nümayiş etdirilməyib. Lazım olan vaxtda, lazım olan yerdə onlar nümayiş etdiriləcək.”

Azərbaycanın öz dəyərlərinə, İslam dəyərlərinə sadiq, İslam aləmində çox böyük hörmətə malik ölkə olduğunu, bu il ölkəmizdə çox önəmli beynəlxalq tədbir - IV İslam Həmrəyliyi Oyunları keçiriləcəyini söyləyən Prezident İlham Əliyev 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi ili" elan etdi.

**AZƏRTAC-ın materialları əsasında**

## Türkiyəli general:
# Azərbaycan Ordusu sürətlə inkişaf edir

*Türkiyə Silahlı Qüvvələrinin Birinci Ordu komandanı ordu generalı Musa Avsever Azərbaycanın İstanbuldakı baş konsulluğunu ziyarət edib.*

Baş konsul Məsim Hacıyevlə keçirilən görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinin əhəmiyyəti, o cümlədən iki ölkənin silahlı qüvvələri arasında qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

M.Avsever Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmamasından narahatlığını ifadə edib. Bildirib ki, Azərbaycan Ordusunun modernləşərək sürətlə inkişaf etməsi Türkiyədə qardaş sevinci ilə qarşılanır. Qardaş ölkədə hərbi hissələrin yüksək standartlara uyğun qurulması olduqca qürurvericidir.

Azərbaycanın İstanbuldakı diplomatik nümayəndəliyinin ziyarət olunmasını ölkəmizə və xalqımıza rəğbət kimi dəyərləndirən M.Hacıyev Türkiyənin sürətli inkişafının ölkəmizdə məmnunluq doğurduğunu söyləyib. Baş konsul diqqətə çatdırıb ki, Azərbaycan xalqı bütün məsələlərdə, o cümlədən terrorçuluqla mübarizədə bundan sonra da Türkiyə xalqının yanında olacaq.

Görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın nümayiş etdirdikləri siyasi iradənin əhəmiyyəti yüksək dəyərləndirilib.

**AZƏRTAC**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***13 yanvar 2017-ci il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 50 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Baş Qərvənd, Şıxlar, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsindəki əsgər yataqxanasının və əsgəri-məişət kompleksinin açılışı olub



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsindəki əsgər yataqxanasının və əsgəri-məişət kompleksinin açılışında iştirak edib.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı general-leytenant Kərəm Mustafayev dövlətimizin başçısına raport verdi.

Məlumat verildi ki, burada əsgər yataqxanası, əsgəri-məişət kompleksi inşa olunub, sıra meydanı, idman sahəsi yaradılıb, abadlıq-quruculuq işləri aparılıb.



Dövlətimizin başçısı əsgər yataqxanasının və əsgəri-məişət kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev əsgər yataqxanasında yaradılan şəraitlə tanış oldu. 900 yerlik yataqxanada əsgərlərin istirahəti üçün hərtərəfli şərait var. Üçmərtəbəli bina müasir səviyyədə yaradılıb. Ümumi sahəsi 4 min kvadratmetr olan yataqxana bütün zəruri avadanlıqla təchiz edilib. Binada ümumi sahəsi 800 kvadratmetr olan 24 otaq var. Bir sözlə, burada yaradılan şərait dövlətimiz tərəfindən əsgər və zabitlərin sosial məsələlərinin həlli istiqamətində atılan addımların ardıcıl xarakter aldığını bir daha nümayiş etdirir.

Məlumat verildi ki, hərbi hissədə hamam kompleksi də yaradılıb. Ümumi sahəsi 272 kvadratmetr olan bu kompleksdən 1 saat ərzində 172 hərbçi istifadə edə bilər. Hərbi hissədəki əsgəri-məişət kompleksinin ümumi sahəsi 6172 kvadratmetrdir. Binada poçt xidmətləri üçün otaq, mağaza və çay evi də hərbi qulluqçuların ixtiyarına veriləcək.

Kompleksdə 1000 yerlik 2, 500 yerlik 1 və 250 yerlik 2 yemək salonu var. Ümumilikdə, burada eyni vaxtda 3000 hərbçi qidalana bilər.

Prezident İlham Əliyev burada qida məhsullarına baxdı, aşpazlarla söhbət etdi.

**Prezident İlham Əliyev:** Çox gözəl şərait yaradılıb.

**Vasif Talıbov:** Yaratdığınız şəraitə görə Sizə minnətdarlıq edirik. İşçilərin hamısı mülki vətəndaşlardır.

**Prezident İlham Əliyev:** Bəli, əvvəllər əsgərlər yemək bişirirdilər. O da dadlı deyildi. İndi isə iş yerləri yaradılıb, yerli vətəndaşlar, qadınlar üçün. Yaxşı yeməklər bişirirsiniz, əsgərlərə də yaxşı baxırsınız.

**Vasif Talıbov:** Sizin tapşırığınızdan sonra 6 minə yaxın mülki vətəndaş, gizir, müddətdən artıq xidmət edən hərbi qulluqçu işə qəbul olunub.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Bu, yeni iş yerlərinin yaradılmasıdır, xüsusilə qadınlar üçün. Əsgərlər də öz xidməti işləri ilə məşğul olacaqlar.

**Vasif Talıbov:** Yeməyin də keyfiyyəti yaxşılaşıb. İndi əvvəlki illərlə müqayisədə, demək olar ki, tullantı yoxdur.

**Prezident İlham Əliyev:** İndi hamısını yeyirlər. Xoşlarına gəlir, ona görə. Sağ olun. Sizə uğurlar arzulayıram.

**Aşpaz Gülarə Qurbanova:** Cənab Ali Baş Komandan, Sizin gəlişinizə çox şadıq. Sizə öz minnətdarlığımızı bildiririk. Gün o gün olsun, belə hərbi hissələr Qarabağda, Laçında, Şuşada salınsın, biz də orada əsgərlərimizə qulluq edək. Sizə bir daha uzun ömür, cansağlığı arzulayıram.



**Prezident İlham Əliyev:** Çox sağ olun. Sizə də uğurlar arzulayıram. Əsgərlərə yaxşı baxın, onları yaxşı yedirdin ki, onlar daha da möhkəm olsunlar, Vətəni daha da yaxşı qorusunlar.

**Aşpaz qadınlar:** Minnətdarıq. Sizin sayənizdə belə gözəl şəraitdə yaşayırıq. Allah Sizin ömrünüzü uzun eləsin. Daim Azərbaycanın başının üstündə olasınız.

**Prezident İlham Əliyev:** Sağ olun.

* * *

Sonra xatirə şəkli çəkdirildi.

Kompleksin anbarları da müasir səviyyədə qurulub. Burada ərzaq və əşya anbarları var. Anbarlar müasir soyuducu kameralar və digər zəruri avadanlıqla təchiz edilib. Kompleksdə camaşırxana, dərzi otağı və qazanxana da mövcuddur. Bu hərbi hissədə yaradılan şərait bir daha göstərir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər maddi-texniki bazası daha da gücləndirilən Azərbaycan Silahlı Qüvvələri haqlı olaraq dünyanın ən qüdrətli ordularından biri kimi tanınır.

Sonra dövlətimizin başçısı silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu.

Bu gün Azərbaycan Ordusu ən müasir silah-sursat, hərbi texnika ilə təmin olunub. Silahlı Qüvvələrimizin balansında olan bu müasir texnika bir çox özəllikləri ilə seçilir. Bunların vasitəsilə Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə istənilən anda düşmənə sarsıdıcı zərbə vurmaqla torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu gün Azərbaycan Ordusunun balansı dünyanın aparıcı ölkələrinin istehsalı olan silah-sursatla genişlənir. Bundan başqa, son illərdə dövlətimizin başçısı, Ali Baş Komandanın diqqəti sayəsində ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar yaradır. Təsadüfi deyil ki, indi ölkəmizin silah-sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur.



# Müdafiə naziri cəbhənin ön xəttində yerləşən bölmələrdə olub

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub.*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki bölmələrdə olan Müdafiə naziri üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dağlıq ərazidə və çətin iqlim şəraitində düşmənlə qarşıdurma xəttindəki bölmələrdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən nazirə əməliyyat şəraiti barədə məruzə edilib. Səngərlərdə döyüş növbətçiliyini yoxlayan Müdafiə naziri hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraiti ilə maraqlanıb.

Bildirilib ki, ön xətdə yerləşən bölmələr içməli su, istiliklə, yuyunma otaqları, isti yataq və digər lazımi qış ləvazimatları ilə tam təmin olunub.

Nazirliyin rəhbər heyəti şəxsi heyətlə birlikdə çay süfrəsi arxasında söhbət aparıb və nahar edib.

Dövlətimizin başçısının Silahlı Qüvvələr qarşısında qoyduğu tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsinə əminliyini ifadə edən Müdafiə naziri hərbi qulluqçuların döyüş qabiliyyətini və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada yerləşən həmsərhəd kəndlərdən birində yerli sakinlərlə görüşərək, yaşayış məntəqələrimizin müdafiəsinin və əhalinin təhlükəsizliyinin təmin edilməsi məsələlərini müzakirə edib.



*Gənc zabitlərimiz*

# "Qələbələrimiz davamlı olacaq"

*Növbəti ezamiyyətə çıxıb ön xəttə - döyüşçü oğullarımızla görüşə tələsirik. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Natiq Tanrıverdiyevin idarə etdiyi "Niva" markalı avtomobillə qatı dumanı yara-yara mənzil başına gəlib çatırıq. Ön xətdəki hərbi hissəni görəndə Azərbaycan Ordusunun təchizat və təminat baxımından ən yüksək səviyyədə olduğuna şahid olursan. Bütün bunlar ordumuzun daim qayğı ilə əhatə olunduğunun göstəricisidir. Bu gün hər birimiz iftixarla söyləyə bilərik ki, Azərbaycanın güclü Silahlı Qüvvələri var.*

Hərbi hissəyə çatanda zabit Şahin Qəhrəmanov bizi bu yaxınlarda Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatını məhv edən leytenant Heydər Fərəcovla tanış edir. Öyrənirəm ki, Fərəcov Heydər Hüseynəli oğlu 1992-ci il yanvarın 1-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Muğancıq Mehrab kəndində anadan olub.

- Babamın yaxın dostlarının hərbçi olması və hər dəfə onun "səni hərbçi görmək istəyirəm" ifadəsi bu peşəni seçməyimə stimul oldu, - deyə leytenant Fərəcov sözə başlayır. - Ana babamın hərbçi dostları çox idi. Onları formada görəndə mənim üçün çox xoş olurdu. Həyatı dərk edəndən anladım ki, mən hərbçi olmaq istəyirəm. 8-ci sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi Liseyə daxil oldum.



Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil aldım. Təlim və Tədris Mərkəzində kurs keçdikdən sonra "N" hərbi hissəsinə göndərildim. Bir müddət xidmət etdikdən sonra komandanlıq ön xətdə xidmət etmək istəyimi nəzərə alaraq 2016-cı il yanvarın 1-dən bu hərbi hissəyə göndərilməyim haqda qərar qəbul etdi.

Leytenant söhbət əsnasında həmin günü yada salır və düşmənin pilotsuz uçuş aparatını vurduğu anı xatırlayır: "Hadisə baş verən gün ənənəvi olaraq postlara baş çəkməyə getmişdim. Taqım komandirinin müavini gizir Elmar Zeynalovla postu yoxlayırdıq. Təxminən saat 15:00 radələri idi. Hava açıq olmağına baxmayaraq, bulud günəşin qarşısını kəsmişdi. Qəribə bir səsin gəldiyini hiss etdik. Arxaya çevrildikdə təxminən 150-200 metr hündürlükdə pilotsuz uçuş aparatının hərəkət etdiyini gördük. Əslində, belə hərəkət edən obyektləri cəmləşmiş atəşlə məhv etmək daha məqsədəuyğun olardı. Silahımla hərəkət edən pilotsuz uçuş aparatına atəş açdım. Bir neçə atəş açdıqdan sonra hərəkət edən obyektin uzaqda da olsa yerə düşdüyünü gördük."

Onun baxışlarını bürüyən qüruru sezmək çətin deyildi. "Düşmənin pilotsuz uçuş aparatını mən vurdum"... müşahidə olunsa, yenə vurulacaq.

Gənc zabit komandanlıq tərəfindən mükafatlandırıldığını da diqqətə çatdırdı: Komandanlıq nümunəvi xidmətimi nəzərə alaraq məni fəxri fərman və qiymətli hədiyyə ilə mükafatlandırdı. Qeyd edim ki, bu, birlik komandiri tərəfindən mənə verilən ikinci fəxri fərman və qiymətli hədiyyədir. Bu təkcə mənim uğurum deyil, bütün şəxsi heyətimizin uğurudur."



Hər bir əsgərə silahını möhkəm öyrənməyi və sərrast atəş açmağı aşılayan zabit silahlara xüsusi yanaşma tələb edildiyini qeyd etdi: "Silah və texnikanı mükəmməl bilməyən hərbçidən uğur gözləmək düzgün olmaz. Əsgər silahı yüksək səviyyədə bilməli və onunla davranmağı bacarmalıdır. İki-üç aydan bir silahların sıfırlanması prosesini aparırıq. Bu da silahlardan atəş açan zaman tam dəqiqlik deməkdir. Bir sözlə, şəxsi heyətin atəş hazırlığına xüsusi önəm veririk. Elə vaxtlar olub ki, gecənin müxtəlif saatlarında onlarla birgə döyüş növbətçiliyi aparmışam. Bu ona görədir ki, gecə vaxtlarında nəzarəti gücləndirməyi müəyyən edim. Hər zaman şəxsi heyətlə maraqlanır, onlarla birgə qidalanır, səngər qazır, silah təmizləyirəm. Bölüyümüzdə ictimai-siyasi hazırlıq, taktiki hazırlıq, atəş hazırlığı, sıra hazırlığı dərsləri yüksək səviyyədə keçirilir. İnanırıq ki, qələbələrimiz davamlı olacaq."

Zabit aprel döyüşlərinin əhəmiyyətinə diqqət çəkir və bu döyüşlərin şəxsi heyətin mənəvi-psixoloji ruhunun yüksəldilməsində xüsusi yer tutduğunu vurğulayır: "Aprel döyüşlərinin uğurlu nəticələrinin hərbi-siyasi əhəmiyyəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin sürətləndirilməsinə təsiri çox böyükdür. İlk növbədə, qeyd etmək lazımdır ki, Silahlı Qüvvələrimizin azsaylı bir heyəti düşmənin illər boyu gücləndirdikləri mövqeləri elə birinci həmlədə məhv etməyi və qısa müddətdə orada möhkəmlənməyi bacardı. Bundan başqa, Ermənistanın işğal etdiyi ərazilərdəki komanda-qərargah məntəqəsi hərbçilərimizin dəqiq cavab atəşi ilə darmadağın edilib ki, bu da ordumuzun yüksək hazırlığını bir daha təsdiqləyir. Azərbaycan əsgəri istənilən mürəkkəb döyüş şəraitində qələbə qazanmağa qadir olduğunu bir daha sübuta yetirdi. Ali Baş Komandanımız və Müdafiə Nazirliyi rəhbəliyinin birgə səyi nəticəsində böyük tarixi nailiyyət əldə etdik. İnanırıq ki, bu uğurun davamı kimi işğalda olan torpaqlarımız azad olunacaq."

**Kapitan Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu"**

# “Ali Baş Komandanın etimadını doğruldacağıq”

## Şəxsi heyətlə iş üzrə komandir müavinlərinin toplantısından qeydlər

*Silahlı Qüvvələrin döyüş hazırlığı planına əsasən, yanvarın 12-də hərbi hissə və birləşmələrin, əlahiddə hərbi bölmələrin şəxsi heyətlə iş üzrə komandir müavinlərinin təlim-metodiki toplantısı öz işinə başlayıb.*



Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Sonra Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev toplantıda geniş məruzə ilə çıxış edib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yanvarın 10-da Nazirlər Kabinetində ölkənin 2016-cı il üçün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş müşavirədəki çıxışına toxunan idarə rəisi bildirib ki, dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğuna göstərilən diqqət və qayğı nəticəsində Azərbaycan Ordusunun döyüş qabiliyyəti daha da güclənib. "Növbəti il üçün dövlət büdcəsində hərbi xərclərin artırılması da deməyə əsas verir ki, ordu quruculuğu ölkəmizdə prioritet məsələdir və bu sahəyə daimi diqqət göstərilir."

General qeyd edib ki, Ali Baş Komandanımız cənab İlham Əliyev bu dəfəki çıxışında da hərbçilərimizin roluna yüksək qiymətləndirdi və bizim əməyimizə böyük dəyər verdi. "Biz hərbçilərimizlə fəxr edirik" sözləri Ali Baş Komandanın dilində səslənirsə, bu, bizə, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətinə verilən ən yüksək dəyərdir. Eyni zamanda bizə dövlət rəhbəri tərəfindən göstərilən etimad məsuliyyət hissimizi də artırır. Buna cavab olaraq üzərimizə düşən vəzifə və tapşırıqların məsuliyyətini dərindən dərk etməli, işğalda olan ərazilərimizin düşmən tapdağından təmizlənməsi üçün döyüş hazırlığımızı daha da artırmalıyıq. Dövlətimizin başçısı Ağdam, Tərtər və Füzuli rayonlarına səfərləri zamanı ictimaiyyətlə görüşlərində də qeyd etdi ki, bu yerlər düşmənlə təmas xəttinə yaxın olmasına baxmayaraq, insanlar əmin-amanlıq şəraitində öz evlərində yaşayır, təsərrüfat qayğıları ilə məşğul olurlar. Buna səbəb isə Azərbaycan əsgərinin ön xətdə ayıqsayıq dayanaraq torpaqlarımızı düşmənlərdən göz bəbəyi kimi qorumasıdır. Göründüyü kimi, hər dəfə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev orduda xidmət edən insanlara dəyər verir, hərbi qulluqçuların vətənpərvərliyini qeyd edir. Ali Baş Komandanımızın etimadını doğrultmaq üçün əlimizdən gələni əsirgəməməliyik.”

Məruzəçi çıxışında bildirib ki, Silahlı Qüvvələrimizin şəxsi heyətilə keçirilən mənəvi-psixoloji hazırlıq işi şəxsi heyətin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasına, əsgəri borcun yerinə yetirilməsində məsuliyyət hissinin artırılmasına yönəldilib. "Orduda yüksək hərbi intizamın saxlanması və şəxsi heyətin döyüş keyfiyyətlərinin artırılması məqsədilə zəruri olan tədbirlər Müdafiə Nazirliyi rəhbərliyinin təsdiq etdiyi döyüş hazırlığı planı əsasında yerinə yetirilir. Mənəvi-psixoloji hazırlıq işinin səmərəliliyini artırmaq, intizamı möhkəmləndirmək, şəxsi heyətlə iş üzrə zabitlərin bilik və bacarıqlarını artırmaq qarşımızda dayanan əsas məsələlərdir. Ümumiyyətlə, şəxsi heyətin vətənpərvərlik ruhunu, döyüş əzmini artırmaq ordu rəhbərliyinin diqqət mərkəzindədir və bu istiqamətdə fəaliyyətimizi bundan sonra da səmərəli qurmalı, yeni metod və üsullardan yararlanmalıyıq. Azərbaycanın dövlət rəhbərliyinin münaqişənin həlli istiqamətində atdığı addımlara baxmayaraq işğalçı Ermənistan öz çirkin niyyətindən əl çəkmək istəmir. Şübhəsiz, belə bir şəraitdə biz qanuni ərazilərimizi işğaldan azad etməyə hazırıq. 2016-cı ilin aprel döyüşlərində qazanılan qələbə də sübut etdi ki, Azərbaycan Ordusunun şəxsi heyəti qarşıya qoyulmuş döyüş tapşırığını, yəni, torpaqlarımızı hərb yolu ilə işğaldan azad etməyə tam qadirdir. Hesab edirəm ki, belə bir mühüm döyüş vəzifəsinin uğurla yerinə yetirilməsində şəxsi heyətlə iş üzrə zabitlərin də üzərinə böyük məsuliyyət düşür. Hər kəs bu vəzifənin məsuliyyətini dərindən hiss edərək vəzifə və tapşırıqları yerinə yetirmək üçün əlindən gələni əsirgəməməlidir".

Orduda kiçik komandir heyətinin hazırlığı məsələsinə geniş diqqət ayıran məruzəçi vurğuladı ki, döyüş tapşırıqlarının icra edilməsində əsgəri heyətin məsuliyyətinin artırılması üçün manqa komandirlərinin seçiminə ciddi fikir verilməlidir. "Unutmaq lazım deyil ki, manqa komandiri əsgərlərlə daim bir yerdədir və onların qayğı-problemlərinə yaxşı bələddir. Gərək şəxsi heyətlə iş üzrə komandir müavinləri yalnız döyüş təcrübəsinə malik olan şəxslərin kiçik komandir vəzifələrinə təyin edilməsinə önəm versinlər. Bacarığı, səriştəsi olmayan hərbçilərə bu postları həvalə etmək yolverilməzdir. Ümumiyyətlə, ön xətdə döyüş tapşırığını icra edən insanlar yüksək mənəvi keyfiyyətlərə malik olmalıdırlar."




General çıxışında bir məsələni də qeyd etdi ki, hərbi xidmətə çağırılan gənclərin təlim müddətində hazırlığı da ciddi diqqət tələb edir. Onun sözlərinə görə, gənc nəslin ailədə və cəmiyyətdə məqsədyönlü tərbiyəsi hərbi xidmətə qəbul edilən gənclərin ordu həyatına hazırlanmasında əsas şərtdir. "Gənc nəslə vətənpərvərlik ruhunun aşılanması Vətənimizin fəal müdafiəçilərinin yetişməsinə zəmin yaradır. Təqdirəlayiq haldır ki, müasir dövrdə dövlətimizin gənclər siyasətində bu məsələ prioritetdir. Bu məqsədlə ictimai təşkilatlar, təhsil müəssisələri böyük iş aparır. Gənclərin hərbi xidmət dövründə də vətənpərvər döyüşçü kimi formalaşmasında mənəvi-psixoloji hazırlığa cavabdeh olan zabitlərin üzərinə böyük məsuliyyət düşür. Gəlin, bir məsələni yadda saxlayaq ki, ön xətdə döyüş tapşırığını icra edən əsgərlərin fiziki hazırlığı da mühüm əhəmiyyət kəsb edir və bu məqsədlə şəxsi heyətin sağlamlığına diqqət yetirilməlidir. Bu sahədə hərbi tibb işçilərinin də məsuliyyəti artırılmalı, yalnız sağlam gənclərin orduda xidməti təmin edilməlidir."

- Bu gün dövlət və ordu rəhbərliyi tərəfindən qarşımıza qoyulan əsas vəzifə şəxsi heyətin mühüm tarixi vəzifənin - torpaqlarımızın işğaldan azad edilməsi vəzifəsinin yerinə yetirilməsinə hazırlığını təmin etməkdir, - deyə general-mayor Rasim Əliyev qeyd edib ki, hər bir gənc hərbi xidməti müddətində mükəmməl döyüş vərdişlərinə yiyələnməlidir. "Əsgərin vətənpərvər döyüşçü kimi yetişməsi üçün cəmiyyətimizdə kifayət qədər örnək olası nümunələr vardır. Elə götürək aprel döyüşlərini. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi, aprel döyüşləri tariximizin ən şərəfli səhifəsidir. Bu döyüşlərdə nə qədər hərbçimiz igidlik və qəhrəmanlıq nümunələri göstərdi. Bütün bunlar şəxsi heyətə, gənc əsgərlərə yetərincə təbliğ olunmalıdır. Biz tabeliyimizdə olan şəxsi heyətə izah etməliyik ki, aprel döyüşləri əsgər və zabitlərimizin vətənpərvərliyini, qorxmazlığını, mənəvi dəyərlərimizə sadiqliyini nümayiş etdirdi və cəmiyyətə əsl örnək oldu. Bu yolu daim davam etdirməli və yeni döyüşlərə hazır olmalıyıq. Bir sözlə, bu gün ordumuzun sıralarında xidmət edən gənclər qəhrəman sələflərini dərindən tanımalı və onların şərəfli ömür yolunu özlərinə layiqli örnək bilməlidirlər."

Elmi-metodiki toplantıda müxtəlif hərbi hissələrin zabitləri, mütəxəssislər çıxış edərək şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ilə bağlı fikir və təkliflərini bölüşüblər.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Şərəfli missiyanı yerinə yetirirlər

## Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları rotasiya qaydasında Əfqanıstana yola salınıb



*NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərmək üçün, Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin verdiyi məlumata görə, Azərbaycan Silahlı Qüvvələrinin 41 hərbi qulluqçusu plana uyğun olaraq rotasiya qaydasında Kabilə göndərilib. Onlar bu narahat Şərq ölkəsində hərbi xidmətlərini başa vurmuş sülhməramlı əsgərlərimizi əvəz edəcəklər. Bir bu qədər də hərbi qulluqçumuz missiyasını başa vuraraq Vətənimizə qayıdacaq. Bundan öncə "N" hərbi hissəsində xeyirxah missiyanın daşıyıcıları üçün yolasalma mərasimi keçirilib.*

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb. Hazırda bu ölkədə bizim 90 hərbi qulluqçumuz xidmət edir. Onlardan iki nəfər mühəndis-istehkam xidməti zabitidir. Eyni zamanda iki həkimimiz orada poliklinikada həm yerli əhaliyə, həm də sülhməramlı kontingentin əsgərlərinə tibbi yardım göstərir. Üç aydan bir rotasiya qaydasında həmin kontingentin bir hissəsi dəyişdirilir.

Sülhməramlılarımız Əfqanıstan İslam Respublikasında patrul xidməti həyata keçirir, piyada və nəqliyyat vasitələrinin yoxlanmasını təşkil edirlər. Eyni zamanda NATO-nun vacib obyektlərini Azərbaycandan olan xeyirxah missiyanın daşıyıcıları qoruyublar, strateji obyekt kimi Kabil televiziyasının mühafizəsilə məşğul olublar. Hazırda sülhməramlı bölüyümüz dislokasiya olunduğu bazanın mühafizəsinin bir hissəsini təmin edir.

Nümunəvi xidmət edən və xeyirxah missiyanı məsuliyyətlə yerinə yetirmiş döyüşçülər kontingent komandanlığı tərəfindən medallarla təltif edilirlər.



Ötən ilin dekabrında ölkəmizə səfər etmiş ABŞ-ın nəqliyyat komandanı general Darren MakDyu Bakıda keçirdiyi brifinqdə sülhməramlılarımızın Əfqanıstanda xidmətinə öz münasibətini bildirmiş, döyüşçülərimizin əmin-amanlıq missiyasını şərəflə yerinə yetirdiyini söyləmişdi.

"Əfqanıstana səfərim çərçivəsində bu ölkədəki sülhməramlı əməliyyatların rəhbəri ilə görüşüm zamanı o, mənə Azərbaycanın bu əməliyyatlarda müstəsna rol oynadığını dedi. O, məndən xahiş etdi ki, Əfqanıstanda sülhyaratma əməliyyatlarına verdiyi töhfələrə görə Azərbaycan rəhbərliyinə minnətdarlıq edim. Düşünürəm ki, məhz Azərbaycanın bu rolu sayəsində həm regionda, həm də dünyanın müxtəlif dövlətlərində təhlükəsizlik və sabitlik qorunacaq", - deyə Darren MakDyu vurğulamışdı.

Onu da qeyd edim ki, sülhməramlı bölüyümüzün xidməti barədə hərbi hissə komandanlığı müntəzəm məlumat alır və xeyirxah missiyanın daşıyıcılarının fəaliyyətini daim nəzarətdə saxlayır. Məlum olduğu kimi, bizim sülməramlılar Türkiyə kontingentinin tərkibində xidmət edirlər. Gündəlik olaraq bölük komandiri hərbi hissə ilə rabitə əlaqəsi saxlayır. Eyni zamanda əsgərlərin valideynlərilə danışması üçün rabitə əlaqəsi yaradılıb və valideynlər mütəmadi olaraq, yəni hər gün övladları ilə əlaqə saxlaya, danışa bilirlər.

Rotasiya qaydasında oradakı bir qrup əsgərimiz də sülhməramlı missiyasını başa vurub Azərbaycana qayıdacaq.

**Ə.MƏHƏRRƏMOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Onları Vətən dostlaşdırıb

*Qarşıda qarlı örpəyə bürünmüş Murovun zirvələri buludlara dirənib. Üzü Murova doğru dayandığımız yüksəkliklərdə Azərbaycan döyüşçüləri istehkam qurğuları yaradıb, səngərlər qazaraq möhkəmləniblər.*

*Komandirlər nümunəvi xidmətilə seçilən döyüşçülərimiz barədə ürək dolusu danışdılar.*



- Burada, cəbhə bölgəsində xidmət edən, gecə-gündüz ölkəmizin ərazi bütövlüyünü qoruyan hər bir əsgər cəsurdur, layiqlidir, - bizimlə söhbətində zabit Namiq Aslanov dedi. - Azərbaycanın hər bir bölgəsindən çağırılmış əsgərlər burada döyüş növbəsi aparır, Vətənimizin müdafiəsində ayıq-sayıq dayanırlar. Onlar bir-birilə dostlaşır, sözün həqiqi mənasında, silahdaşa çevrilirlər.

Bölmələrimizdən birində nümunəvi xidmətilə seçilən belə döyüşçülərimiz barədə qeydlər götürmək istədiyimi bildirdim. Onlar təkcə silahdaş deyil, həm də bir ailənin üzvləri kimi doğmalaşıblar.

Biz ön xətdə əsgərlərimizlə söhbət etdik, onlarla yaxından tanış olduq. Vətən oğullarını əsgəri xidmət, düşmənlə təmas şəraitində döyüş növbəsi aparmaq daha da yaxınlaşdırıb. Necə deyərlər, hamı bir nəfər üçün, bir nəfər hamı üçün prinsipi ilə xidmət aparırlar.

- Hesab edirəm ki, bölüyümüzün bütün əsgərləri nümunəvidir, - zabit Niyət Şirəliyev dedi. - Onların hər biri öz əsgəri vəzifəsinə vicdanla yanaşır. Bununla belə ən yaxşılar sırasında kiçik çavuş Elxan Əmiraslanovun, əsgərlərdən Rəhim Rəhimlinin, Asif İsazadənin, Oruc Azayevin, Sərvər Dursunovun və başqalarının adlarını çəkmək istərdim. Onlar bizim ən nümunəvi döyüşçülərimizdəndir.

Kiçik çavuş Elxan Əmiraslanov müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur. Tovuzlu döyüşçü əsgəri xidmətini başa vurduqdan sonra yenə ordumuzda qalaraq Vətənin keşiyində dayanmağı özünə peşə seçib.

Əsgər Rəhim Rəhimli Bakı şəhərinin Əmircan qəsəbəsində dünyaya gəlib. O, məlum aprel döyüşlərinin iştirakçısıdır və həmin uğurlu əməliyyatda qazanılmış qələbə ilə fəxr edir. Artıq xidmətini başa vuran döyüşçü bu günlərdə ordu sıralarından tərxis ediləcək. Ancaq işğal edilmiş ərazilərimizin azad edilməsi üçün Vətənin çağırışına hər an hazır olduğunu bildirdi.

Əsgər Asif İsazadə Qəbələ rayonundandır. O, hərbi xidmətə ötən ilin aprelində çağırılıb, hərbi hissələrimizin birində gənc əsgər kursu keçib, Vətənimiz Azərbaycana sədaqət andı içib.

Kürdəmir rayonunun Yenikənd kəndində dünyaya gəlmiş Oruc Azayev bizimlə söhbətində öz silahdaşları və komandirilə fəxr etdiyini qürurla söylədi. Uşaq vaxtlarından o, valideynlərinin əlindən tutub, ev və təsərrüfat işlərində ataanasına dayaq olub. Oruc artıq bir ildir ki, Vətənə əsgəri borcunu verir.

- Mən Azərbaycanın əsgəriyəm, - əsgər Azayev qürur hissilə dedi. - Yaşıdlarım kimi mən də Vətənimə öz əsgəri borcumu verməyə gəlmişəm. Hərbi xidmətə yola düşəndə valideynlərim də ləyaqətlə xidmət etməyi tövsiyə ediblər. Mən də çalışıram ki, onların başını uca edim.

Əsgər Sərvər Dursunov da Orucla eyni vaxtda ordu sıralarına çağırılıb. Döyüşçü Mingəçevirdə anadan olub, zəhmətkeş ailədə böyüyüb boya-başa çatıb. Komandirləri əsgər Dursunovun da nümunəvi hərbi qulluqçu, intizamlı və qabiliyyətli döyüşçü olduğunu söylədilər.

- Hələ hərbi xidmətə gəlməzdən qabaq əsgəri dostluğun möhkəm olduğunu eşitmişdim, - əsgər Dursunov gülümsünür. - Burada mən gördüm ki, o sözlər doğrudur. Hamımız bir ailənin üzvləriyik. Yeməyimiz, içməyimiz, xidmətimiz birdir. Hamımız bir-birimizə dayağıq.

Əsgərin sözlərindəki həqiqəti hərbi xidmət, döyüş yolu keçmiş hər kəs təsdiq edə bilər. Əslində, hər birimizi bir-birimizə bağlayan Vətənimizdir, Azərbaycandır.

- Döyüşçülərimizin hər biri doğma Azərbaycanımızın müxtəlif guşəsindən olsa da, onları Vətən birləşdirir, - zabit Niyət Şirəliyev dedi. - Onlar bacarıqlı, cəsur, öz silahını sevən və həmişə ona diqqətlə qulluq göstərən hərbçidirlər və öz silahdaşlarına nümunədirlər. Əsgərlərimiz yaxşı başa düşürlər ki, döyüş bölgəsində silahdaş kimi bir-birinə arxadayaq olmalıdırlar. Hər şeydən öncə ona görə ki, məkrli düşmənlə üz-üzədirlər.

Azərbaycanın təhlükəsizliyi millətimizin təhlükəsizliyidir, ana-bacılarımızın, övladlarımızın təhlükəsizliyidir. Əldə silah Vətənimizin keşiyində dayanmaq, onu göz bəbəyi kimi qorumaq hər bir Azərbaycan vətəndaşının müqəddəs vəzifəsidir. Xoşdur ki, çağırış yaşı çatmış Vətən oğulları valideynlərinin, doğma və əzizlərinin xeyir-duası ilə hərbi xidmətə yollanır, müsəlləh əsgər olaraq doğma Azərbaycanımızın müdafiəsinə öz töhfələrini verirlər.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

## Ordu quruculuğu

# “Dağlıq Qarabağa heç vaxt heç bir müstəqillik verilməyəcək”

*Nə zaman, kimin dediyindən asılı olmayaraq bəşəri kəlamlar yaşarı olur. "Biz hərb istəmirik, hərbə hazırıq" kəlamı kimi...*

**Ali Baş Komandan İlham ƏLİYEV:**

*Ordu quruculuğu prosesi bundan sonra da sürətlə davam edəcək. Bu, bizim diplomatik sahədə apardığımız səylərə böyük dəstəkdir...*

*Bu günə qədər Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü təmin edib və düşmənə sarsıdıcı zərbələr endirib. Bu gün artıq Ermənistan rəhbərliyi etiraf edir ki, xarici yardımlar olmadan Azərbaycanın qabağını almaq mümkün olmayacaq.*

Xalqımız aprel ovqatıyla "Kimsənin torpağında gözümüz yoxdu, torpağımızı işğaldan azad etmək üçün müharibəyə hazırıq" deyir. Bu qənaət Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində dediyi "Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq göstərmişdir", "Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Bu qələbə münaqişənin həllini yaxınlaşdırır" fikirlərindən qaynaqlanır. Aprel döyüşləri Azərbaycan Ordusunun döyüş qabiliyyətini təsdiqlədi. Düşmən bir daha əmin oldu ki, bu ordu torpaqlarını işğaldan azad etməyə qadirdir. Biz torpaqlarımızın işğaldan danışıqlar yolu ilə azad edilməsini istəyirik, bu baş tutmasa, müharibəyə hazırıq. Aparacağımız müharibə ədalətli müharibə olacaq.

Ötən əsrin 80-ci illərində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsi "dilə gətiriləndə" ulu öndər Heydər Əliyevin qətiyyəti erməni iddiasının "ayaq açmasına" imkan vermədi. Azərbaycanda milli azadlıq hərəkatı güclənəndə erməni millətçiləri güman etdilər ki, imperiya azadlığını, müstəqilliyini tələb edən bir respublikadan (Azərbaycandan) ərazi iddiasında olan



digər respublikanın (Ermənistanın) mövqeyini dəstəkləyəcək. Belə də oldu. Sabiq SSRİ hökuməti də, dünya dövlətləri də Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu bilsələr də, SSRİ hökuməti imperiya xislətinə görə, dünya dövlətləri naməlum səbəblərə görə Dağlıq Qarabağın Azərbaycanın ərazisi olduğunu birmənalı şəkildə bildirmədi. Bu, ermənilərin daha da fəallaşmasına, nəticə etibarilə Azərbaycanın 20 faiz torpağının işğalına səbəb oldu. Digər tərəfdən, Moskva Ermənistana təkcə siyasi deyil, həm də leqal, qeyri-leqal hərbi dəstək verdi (Xocalı faciəsini xatırlamaq kifayətdir). İndi zaman o zaman deyil, dövlətimizin xarici siyasəti o vaxtkı siyasət deyil - dövlətin siyasi və diplomatik mövqeyi möhkəmlənib, ordumuz da o vaxtkı ordu deyil...

Azərbaycan BMT-yə qəbul edildi. Təbii ki, belə prosedurda dövlətin ərazi bütövlüyü də nəzərə alınır. Ölkəmizin BMT-yə üzv qəbul edilməsinə səs verən dövlətlər Azərbaycanın tərkibində Dağlıq Qarabağ adlı ərazinin olduğunu da bilirdi. O ərazi işğal ediləndə (və indiyə kimi!) niyə ədalətin tərəfində olmasınlar? Belə olan halda, müharibə aparsaq, nə deyə bilərlər? Bəşərilik onların deyəcəklərini tamamilə təkzib edəcək...

28 May - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də məhz bu məqamı xatırlatdı: "Dağlıq Qarabağ bütün beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Biz BMT-yə üzv olduqda Dağlıq Qarabağ da bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi, Azərbaycanın bir parşası kimi qəbul edildi". Dövlətə, dövlətçiliyə sonsuz sayğıya, sevgiyə söykənən bu dönməz məntiq bəşəri duyğuları titrətməliydi. Güman edirdik ki, kəskin mövqeyini bildirməyən, bəlkə də gözləmə mövqeyi tutan dövlətlər məhz bəşəri duyğular tərəfdarı olduğunu yaxın vaxtlarda konkret mövqeyi ilə təsdiqləyəcək, Ermənistana işğal etdiyi ərazilərdən çıxmalı olduğunu, BMT-nin məlum qətnamələrinə əməl edilməsinin zəruriliyini kəskinliklə xatırladacaq. Belə olmadı. Necə deyərlər, od düşdüyü yeri yan-



dırar. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə qəti, bəşəri münasibət hiss olunmur...

Tərəfdaşlıq qarşılıqlı hörmətə, qarşılıqlı sayğıya söykənməlidi. Təkcə iqtisadi əlaqələrlə bağlı olan tərəfdaşlıq, əslində, iqtisadi səmərə güdməyin təzahürüdür. Azərbaycan kimi zəngin təbii sərvətlərə malik olan dövlətlə iqtisadi tərəfdaşlığa bütün dövlətlər maraqlıdır, ancaq siyasi münasibət göstərmə məqamında susur. Ən yaxşı halda "Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik" deməklə kifayətlənir, Ermənistanın işğalçı dövlət olduğunu kəskinliklə bildirmir. Bu dövlətlər də, Ermənistan da bilsinlər ki Azərbaycan Prezidentinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xalqa təbrikində dediyi "Dağlıq Qarabağa heç vaxt heç bir müstəqillik verilməyəcək" fikri həm Azərbaycan dövlətçiliyinə sonsuz sevginin, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Azərbaycan dövlətinin birmənalı mövqeyidir. Həm də kifayət qədər dönməz xarici siyasətə, ordu quruculuğunda əldə edilən uğurlara istinadən deyildiyinə görə çox ciddi bəyanatdır. İşğalçı dövlət də, onun havadarları da bundan nəticə çıxarmalı, münaqişəni döyüş həddinə çatdırmamalıdır.

Son vaxtlar respublikamızda ordu quruculuğu istiqamətində kifayət qədər önəmli islahatlar aparılmış, ordumuzun döyüş hazırlığı əhəmiyyətli dərəcədə artmışdır. Ən müasir hərbi texnikalarla, atıcı silahlarla təmin olunmuş Silahlı Qüvvələrimiz Cənubi Qafqazda ən güclü ordudur. Belə olmasaydı, Türkiyə kimi möhtəşəm bir dövlətin ordusu qoşun bölmələrimizlə müştərək təlimlərdə iştirak etməzdi. Təlimlər hər iki dövlətin hərbçilərinin döyüş hazırlığının səviyyəsini təsdiqlədi. Bunu düşmən də bilir. Biz qürurlanırıq, düşmən ehtiyatlanır. Döyüşlər olacaqsa, biz qələbəmizə inanırıq, düşmən məğlub olacağını duyur. Aprel döyüşlərində bu da təsdiqləndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Aprel döyüşləri bizim şanlı tariximizdir" fikri sülh danışıqları baş tutmasa, müharibə olacağını, işğal olunmuş bütün torpaqlarımızın döyüşlə azad ediləcəyini bildirən bəyanatdır. Onda Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq göstərəcəkdir.



Silahlı Qüvvələrimizdə aparılan islahatlar uğurla davam edir. Ötən il Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda Ali Baş Komandanın dedikləri torpaqlarımızın işğaldan azad ediləcəyi günün uzaqda olmadığına inamımızı kükrədir: “Ordu quruculuğu prosesi bundan sonra da sürətlə davam edəcək. Bu, bizim diplomatik sahədə apardığımız səylərə böyük dəstəkdir...

Bu günə qədər Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü təmin edib və düşmənə sarsıdıcı zərbələr endirib. Bu gün artıq Ermənistan rəhbərliyi etiraf edir ki, xarici yardımlar olmadan Azərbaycanın qabağını almaq mümkün olmayacaq". Ermənistana yardım edən dövlətlər bəşəri duyğuların məhvinə yardım etdiklərinin fərqində deyilmi? Deyilsə, niyə?...

Xalqa təbrikində Prezident İlham Əliyev onu da qeyd edir ki, status-kvonun qəbuledilməzliyi haqqında bu məsələ ilə fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda, ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar verməişlər. Bu bəyanatların da BMT-nin qətnamələri kimi hələlik nəticəsiz qalması, təmas xəttində atəşkəsin vaxtaşırı pozulması da danışıqların uzadılmasına xidmət edir. Ermənistan Azərbaycan Ordusunun nəyə qadir olduğunu yaxşı bildiyindən atəşkəsi pozmaqla kifayətlənir, irimiqyaslı hərbi əməliyyatlar aparmağa cəsarət eləmir. Bunu Ermənistan ordusunda fərarilik edən hərbi qulluqçuların dedikləri də təsdiq edir: Ermənistanda hərbi qulluqçular vahimə içindədir. Azərbaycan Prezidentinin dediyi "Ermənistan bundan sonra da daim qorxu, təşviş, isterika, vahimə içində yaşayacaq və gün gələcək ki, artıq Azərbaycan Ordusu öz sözünü deməli olacaq" fikri Ermənistan rəsmilərini ciddi düşündürməlidir...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birmənalı şəkildə bildirir ki, Dağlıq Qarabağa heç vaxt heç bir müstəqillik verilməyəcək. "...Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır".

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Dövlət sərhədində vəziyyəti gərginləşdirmək məqsədilə Ermənistan təxribatları davam etdirir

*Son vaxtlar müxtəlif vasitələrlə Azərbaycan-Ermənistan dövlət sərhədində vəziyyəti gərginləşdirmək məqsədi güdən Ermənistan bu dəfə daha bir təxribata əl atıb.*



Ermənilər tərəfindən kustar üsulla hazırlanan partlayıcı qurğu yanvarın 12-də dövlət sərhədinin Tovuz rayonu sahəsində, qoşunların qarşıdurma xəttinə yaxın əraziyə PUA vasitəsilə atılıb.

Bu cür mənşəyi və mənsubiyyəti məlum olmayan qeyri-ənənəvi üsulla hazırlanan partlayıcı vasitələrin düşmən tərəfindən tətbiqi müdafiənin ön xəttində yerləşən bölmələrimizin şəxsi heyətinə, xüsusilə də həmsərhəd ərazilərdəki yaşayış məntəqələrinin dinc əhalisinə xəsarət yetirmək məqsədini güdür.

Partlayıcı qurğunun zərərsizləşdirildikdən sonra ilkin öyrənilməsi zamanı bu vasitənin elektrik detonatoru, detonasiya qaytanı, çoxlu sayda metal qəlpələr və qurğunun işə salınması üçün batareyalardan ibarət olduğu müəyyən edilib.

Beynəlxalq normativ hüquqi qaydalarla istifadəsi qadağan olunan bu cür vasitələrin Ermənistan tərəfindən, xüsusilə Azərbaycan-Ermənistan dövlət sərhədində məqsədyönlü şəkildə tətbiqi vəziyyəti gərginləşdirmək, Azərbaycanı cavab tədbirləri görməyə təhrik etmək və bununla da təmsil olunduğu hərbi-siyasi blokun digər üzvlərinin diqqətini növbəti dəfə ciddi-cəhdlə münaqişəyə cəlb etmək məqsədini güdür.

Müdafiə Nazirliyi bildirir ki, baş verə biləcək hər hansı insidentə və onun nəticələrinə görə məsuliyyət tamamilə Ermənistanın kriminal hərbi-siyasi rejiminin üzərinə düşür.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Monitorinq baş tutdu

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 12-də Füzuli rayonunun Aşağı Veysəlli kəndi istiqamətində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Xristo Xristov, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi mayor Cavit Elyas keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçisi Piter Şvedberq və YSPQ-in rəhbəri polkovnik Hans Lampalzer keçirib.

# İdman

## Cüdoçularımız Avstriyada təlim-məşq toplanışı keçəcəklər



Cüdo üzrə Azərbaycan milli komandası geniş heyətlə Avstriyaya yollanıb.

İdmançılarımız Mittersil şəhərində təlim-məşq toplanışı keçəcəklər.

Toplanışa əsas millinin, qadınlar, gənclər və paralimpiya komandalarımızın üzvləri cəlb olunub. Hər il ənənəvi qaydada təşkil edilən Avstriya toplanışında dünyanın ən güclü cüdo ölkələrinin milli komandaları təmsil olunurlar.

Təlim-məşq toplanışına yanvarın 18-də yekun vurulacaq.

## Vüqar Həşimovun xatirəsinə həsr olunmuş şahmat turnirinə yekun vurulub



Yanvarın 11-də Azərbaycanın tanınmış şahmatçısı, beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan "ASAN" könüllüləri arasında turnirin qalibi müəyyənləşib. Dairəvi sistem üzrə beş turdan ibarət yarışda hər birinin heyətində 5 könüllü olan 6 komanda mübarizə aparıb.

Bütün görüşləri qələbə ilə başa vuran 3 saylı "ASAN xidmət" mərkəzinin könüllüləri turnirin qalibi olublar. 1 saylı "ASAN xidmət" mərkəzinin komandası ikinci, 2 saylı "ASAN xidmət" mərkəzinin könüllüləri isə üçüncü yeri tutublar.

## “Azərreyl” komandası “Fənərbağça” ilə qarşılaşıb



Yanvarın 11-də Bakının qadınlardan ibarət "Azərreyl" voleybol komandası Çempionlar Liqası yarışlarının qrup mərhələsində ikinci oyununu keçirib.

Bakı təmsilçisi İstanbulda Burhan Felek Voleybol Salonunda yerli "Fənərbağça" komandasının qonağı olub.

Bolqarıstanlı baş hakim İvaylo İvanovun idarə etdiyi oyunda "Fənərbağça" 3:0 hesabı ilə qalib gəlib. Baş məşqçi Famil Ağayevin yetirmələri növbəti oyununu fevralın 9-da doğma meydanda Fransanın "Saint-Rafael" komandasına qarşı keçirəcəklər. Bakı təmsilçisi Çempionlar Liqasının "C" qrupunda ilk oyununu Azərbaycan Voleybol Mərkəzində Polşanın "Dabrova Qornitsa" komandasına qarşı keçirib və 3:1 hesabı ilə qalib gəlib.

## Güləş üzrə Azərbaycan çempionatında daha altı çəki dərəcəsində qaliblər müəyyənləşib



Yanvarın 12-də Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında növbəti Azərbaycan çempionatının ikinci gününə yekun vurulub.

Yarışın ikinci günündə 164 pəhləvan gücünü sınayıb. Sərbəst güləş üzrə yarışlarda 86, 97 və 125 kiloqram çəki dərəcələrində 50, yunan-Roma güləşi üzrə mübarizədə isə 59, 66 və 71 kiloqram çəki dərəcələrində 114 atlet xalça üzərinə çıxıb.

Sərbəst güləş üzrə yarışlarda Aleksandr Qostiyev (86 kq), Nurməhəmməd Hacıyev (96 kq), Cəmaləddin Məhəmmədov (125 kq) qızıl medallar qazanıblar. Yunan-Roma güləşçiləri arasında isə Taleh Məmmədov (59 kq), Azad Əliyev (66 kq) və İslambek Dadov (71 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıblar.

**AZƏRTAC-ın materialları əsasında**

*20 Yanvar faciəsi*

# Qərənfillər daha ağlamır...



Zamanında qərənfili mən də əzizləmişəm...

Zamanında mənim də duyğularımın dilmancı qərənfil olub...

27 ildi qərənfillərə könül xoşluğuyla baxa bilmirik...

27 ildi qərənfili ümumxalq qəhərinin təmsilçisi bilirik...

27 ildi qərənfilə şair misrasıyla müraciət eləyirik: ağla, qərənfil, ağla...

Onsuz da unutmadığımız, unutmayacağımız dərd ötən illərin yanvarında bir boy da dikəlir, "Müstəqilliyin yolu şəhidlikdən keçir" - deyirdi. Duyanlar duyurdu; məmləkət boyunca hamı duyurdu. İndi də belədi. Duyanlar indi də belə duyur; məmləkət belə duyur. Mənə belə gəlir ki, bu duyum "əllərini gözünün üstünə qoyub" ötən ilin aprelinə boylanır. Bu ilin yanvarında Lələtəpə ovqatı, Bayraqtəpə ovqatı hiss olunur; bu ovqat sazağı sındıran, şaxtanı "yumşaldan" ovqatdı. Bu ovqata zaval yoxdu!..

Yenə yanvardı...

Diqqətimi qərənfillərin duruşu çəkir. Ötən ilki məhzunluğun azaldığını hiss eləyirəm. Nədəndi bu? Şəhidlik unudulmur axı. Niyə ağlamır qərənfillər? Niyə Şəhidlər xiyabanına gətirən yollar boyunca qərənfil hönkürtüsü eşidilmir?...

Şəhidlər unudulmur. Bəs qərənfillər illərlə şəhidlərə, şəhidliyə ad olan qəhəri bu il niyə şair kəlamıyla anmır? Bu il qərənfillər unudulması mümkünsüz olan qəhərini "udur" elə bil: ləçəklərinin "qəhər köynəyi" görünmür, titrəyişinin göynəyi hiss edilmir; qərənfillər bu il ağlamır...

Bu ilin yanvarında hiss edilən Lələtəpə ovqatı, Bayraqtəpə ovqatı var. Bu ovqat qərənfillərin qəhərinə toxdaqlıq olub.

Sabah yanvarın 19-du...

27 ildi yanvarın 20-sində Şəhidlər xiyabanına-can qərənfillər düzüləcək. Görənlər bu bəşəri ziyarəti azadlığa, müstəqilliyə içilən and biləcək, səhidlərin amalına sədaqət andı biləcək...

Həmin gün yenə öz qəhərini unudub ümumxalq qəhərinin zərrəsi olanlar gələcək bura. Milyonlar gələcək. Əllərdə uçunan qərənfillər yenə qəhərin, kədərin dilmancı olacaq. 27 ilin o üzündə törədilmiş qətliamın azalmayan-sozalmayan ağrı-acısı düşüncələri yenə silkələyəcək. Dözümlülər öz yerində, qərənfilləri toxdaqlı görən kövrəklər də qəhərini dodaqlarında donduracaq; 27 il bu yola, bu xiyabana qəhər görkəmində sərilən qərənfillər 27 yaşlı cavanların qəhərini sezincə qəhərləndirəcək. Qərənfillərin qəhərini ürkəcək-ürkəcək əsən meh pərdələyəcək. "Şəhidliyiylə müstəqilliyimizə yol açanların ruhunu nigarançılıqdan siz xilas edəcəksiniz. Lələtəpədən, Bayraqtəpədən başlanan yol Şuşaya aparacaq. Bu uğur üstəyik. Ürəyinizi o ovqata kökləyin. Qəhərlənməyin..." - qərənfillərin titrəyişindən bunlar oxunacaq.

Qərənfillər ağlamır...

İllərlə Şəhidlər xiyabanına qızlarımla gedərdim. Üç ildi nəvələrim də bizimlə gedir. Leyla kimsənin eşidə bilməyəcəyi səslə "Ağla qərənfil, ağla"nı pıçıldayacaq. Anasına sığınaraq, əlindəki qərənfilləri sinəsinə sıxaraq, qərənfillərin ləçəklərini göz yaşlarıyla isladacaq. Larisanın məzarı önündə ayaq saxlayacaq. Anasına baxacaq. Çəkingən addımlarla məzara yaxınlaşacaq. Evdən çıxalı bərk-bərk yapışdığı qərənfilləri qərənfillərin sırasına qoyacaq və bizi doluxsunan görüb özü də doluxsunacaq...

Qərənfillər ağlamır...

Nəvələrim də böyüyəcək. Azərbaycanın işıqlı sabahlarının vətəndaşları sırasında onlar da bu ünvanın müqəddəsliyini bizlər kimi yaşayacaq. Qızım qızı yaşında olanda özü yaşda uşaqların sızıltısına, "Ata!" harayına boylanardı. Çətinliklə ovundurardım. İndi qızını ovunduracaq. Nə deyəcək qızına? O vaxtlar bu yaşda olanda məndən eşitdiklərini, sonralar dərk elədiklərini deyəcək, şəhid analarının səssiz baxışlarından oxuduqlarını deyəcək, ... Bir də deyəcək ki, müstəqilliyimizi bu şəhidlik qazandırdı...

Nəvəm bizdən soruşacaq: "Qərənfillər niyə ağlamır?". Dərk edəcəkmi, etməyəcəkmi, qızım bunun fərqinə varmadan deyəcək: müstəqilliyimiz naminə şəhid olanlara ümumxalq sevgisi azala bilməz, qızım. Qərənfillər Böyük Qələbə ərəfəsində olduğumuza görə ağlamır...

Qərənfillər şəhidlərin ruhunu narahat etməmək üçün ağlamır...

Müstəqilliyimizə görə ağlamır...

Torpaqlarımızın işğaldan azad ediləcəyi inamına görə ağlamır...

"Mayəsi də, qayəsi də nur olan" (Məmməd Araz) Azərbaycanımıza görə ağlamır qərənfillər...

Qərənfillər daha ağlamır...

**Rəşid HÜSEYNOV, "Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 16
Nüsxə 4650